**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 84**

**Bakı şəhəri, 9 mart 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 3 avqust tarixli 148 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qarayazı Dövlət Təbiət Qoruğu haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə**

"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 835-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 3492 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 3 avqust tarixli 148 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 779; 2006, № 11, maddə 994; 2014, № 10, maddə 1304; 2015, № 6, maddə 809) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qarayazı Dövlət Təbiət Qoruğu haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2-ci bənddə "Elmi-tədqiqat idarələrinin" sözləri "Elmi müəssisə və təşkilatların" sözləri ilə əvəz edilsin.
2. 6.4-cü bənddə "təşkilatlar" sözü "elmi müəssisə və təşkilatlar" sözləri ilə əvəz edilsin.
3. 6.10-cu bənddə "elmi-tədqiqat idarələri" sözləri "elmi müəssisə və təşkilatlar" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**